

ZAUR
ƏRMUĞAN

## BELƏ AÇIRAM SƏHƏRİMİ

Oturmuşam otağımda
Dikimişəm gözlərimi
masadakı bəyaz kağızlara
Qalmışam tək-tənha,
səssiz-səmirsiz.
Könlümdəsə, dənizlər coşur.
Qaynayır vulkanlar.
Od püskürür şimşəklər də
Sellər təlatüm kimidir
içimdə.
Fikrim sanki bir gəmidir
Ümmanların qucağında.
yaşadığım anlar
Dinir kəlmə-kəlmə
Qarşımdakı varağımda.
Nə çəkirəm, ürək bilir.
Şahid kağız, bir qələmdir.
Qaralanır ağ vərəqlər
Hər şeir-bir ömür
Sözlər-mənim gözyaşım.
Yazıram
sevincimi, kədərimi
Məndə hər gün
belə açıram səhərimi.

## BU GÜN YAŞADIM

Bu gün bir kitab oxudum;
çoxdan axtardığım kitabı.
Bu gün dükandan aldığım
qəfəsdəki quşları da buraxdım
pərdələri yelkən kimi gərilən
pəncərəmdən havaya.
Bu gün bir şeir də yazdım
söyüd ağacının gövdəsinə söykənərək.
Mən yoxsuldan dilənən
qapıya gəlmiş dilənçiyə də
verdim iyirmi qəpik,
özüm qəpiyə güllə ata-ata.
Bu gün çörək yemədim heç.
İki fincan çay üstündə köklədim
ötəri canımın əbədi qalacaq
ruhunu.
Masaya dirçəklənib
apardım əlimi qulağımın dalına.
Boşuna deyildi:
düşünürdüm mənə gah "hə",
gah da "yox" deyən fikirlərimi.
Nə çayxanaya getdim çay adıyla
qeybətə.
Nə qoşuldum ona-buna,
yerli-yersiz, qaqqıltılı söhbətə.
Televizordakı
bayağı, şit verlişləri də
görmədim, nə gözəl!
Söndürdüm telefonumu.
Qulaq asdım su səsinə.
Bağçamızda
vuruldum da
budaqdakı quşun cəh-cəhinə.
Dünyanın dərdini
ağır bir yük kimi
çıxardıb içimdən,
daş idimi
çırpdım yerə?
Hər cür olanı,
Heç cür olmayanı
bir anlığa boşadım.
Sizi bilmirəm əzizlərim,
Bu gün mən
azca da olsa, yaşadım...

## GÖZLƏRİMİN SƏRGİSİ

Sən
yağış damlalarının
torpağın üzərinə düşdüyü kimi
düşürsən yadıma.
Zülmət gecələrdə
qara buludların arxasından
boylanan ay təki
işıqlanırsan
duyğularımda, düşüncələrimdə.
Bürküdə
qol-budaqlı ağacların
yaşıl yarpaqları arasından
məlhəmi andıran ılıq yel,
xoş bir hava qədər
sərinləndirirsən ürəyimi.
Səni belə xatırlayıram
Və bu,
rəssam fırçasında
çəkiləsi olsaydı,
o tablonu
asardım gözlərimin sərgisindən.

## YAZIĞIM GƏLDİ

Varlı bir yazıçının
təzə hekayəsini oxudum
məşhur jurnalların birində.
Demirəm, səhifələr yazıldığı üçün
heyfisləndim.
Vərəqə yazığım gəldi.
Ağ kağızlar
qara yasın içindəydi.

## VİCDAN ƏZABI

Qaçsan da
dünyanın bu başından o başına,
bir gün yerdə
bir gün göydə...
Lap dolansan kainatı,
qaça bilməzsən özündən
Harda, nə vaxt?
Fərqi yoxdur!
Əməlinin əyrisindən, düzündən
gen dolanmaq çətin, müşkül.
Ürəyindən gələn bir səs
cingildəyər qulağında.
Öz-özünə verdiyin suallar
yorar səni.
Sənə darlıq edər dünya.
Asılarsan vicdanın sərt əzabından.
Nə qınaqdır, nə nifrətdir.
Bu, elə bil yaşamdır ki,
yaşayışı olmaz olan
bir dəhşətdir!...

## UNUDULMAYAN

Deyirsən:
-Unut məni!
Demirəm:
-Necə unudum?!
Deyirəm:
-Unudulmayansan!
Unudulmayanı unutmaq olmur!

Ədalət.- 2016.- 20 iyul.- S. 4.